*Zəfər tariximiz*

# ŞƏHİD MƏZUNLARIMIZ



**Vüqar Səlimova,**
*"Peşə təhsili və insan kapitalı" jurnalının şöbə redaktoru,*
*Azərbaycan Jurnalistlər Birliyinin üzvü*
*e-mail: vselimova35@mail.ru*

*Ulu öndər Heydər Əliyev vətənpərvərlik hislərini yüksək qiymətləndirərək demişdir: "Hamımızın ümumi vəzifəmiz xalqımızda vətənpərvərlik, Vətən torpağına, millətə sədaqət, Vətən uğrunda şəhidliyə hazır olmaq hislərini formalaşdırmaq, inkişaf etdirmək və təbliğ etməkdir". Bununla ümummilli lider müharibə şəraitində yaşayan bir ölkədə gənc nəslin hərbi vətənpərvərlik tərbiyəsinə xüsusi diqqət yetirmiş, onun yüksək səviyyəyə qaldırılmasını əsas vəzifələrdən biri kimi məktəblərin qarşısında qoymuşdur.*

*Bəli, vətəni qorumaq hər bir vətəndaşın borcudur. Ölkəmizdə vətənpərvərlik ruhunun əsas daşıyıcısı və aparıcı qüvvəsi onun gəncləridir. Hər bir xalqın mövcudluğu üçün sağlam gəncliyin olması vacib şərtdir. Bu baxımdan təhsil müəssisələrində aparılan tədbirlər onlarda vətənpərvərlik ruhunun daha da inkişaf etməsinə təkan verir.*

*Bu gün təhsil müəssisələrində hərbi vətənpərvərlik təlim-tərbiyəsi planlı şəkildə qurulur və səmərəli yerinə yetirilir. Təhsilalanları vətənə məhəbbət ruhunda tərbiyə etmək, orduya gənc hərbi qulluqçuların hazırlanmasını təmin etmək və təlim prosesində təhsilalanlara qanunlara hörmət, orduya rəğbət, vətənə xidmət, xalqa məhəbbət kimi hislər aşılanır. Artıq parta arxasında əyləşən hər bir təhsilalan yaxşı anlayır ki, hərbi xidmət keçmək, vətəni müdafiə etmək onun övladlıq borcudur. Bu işin başında isə məktəb durur. Gənclərimizin vətənpərvər ruhda böyüməsi məktəbdən başlayır. Ona görə də hər bir müəllimin üzərinə həm çətin, həm də məsuliyyətli bir iş düşür.*

Azərbaycanın işğal altında olan torpaqları uğrunda gedən 44 günlük Vətən Müharibəsi böyük qələbəmizlə başa çatdı. Ölkəmiz bu müharibədə parlaq qələbə qazandı. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər, rəşadətli ordumuz böyük şücaət və yüksək döyüş hazırlığı göstərərək torpaqlarımızı işğaldan, düşmən tapdağından azad etdi. Tarix yazan Azərbaycanın şanlı qəhrəman ordusunun əsgər və zabitləri Azərbaycanın haqq uğrunda mübarizə aparmaq əzmini, əsl döyüş ruhunu bütün dünyaya nümayiş etdirdi.

44 günlük Vətən müharibəsində qazanılan qələbəmizdə peşə təhsili müəssisələrinin məzunlarının da böyük payı vardır. Aşağıda adları çəkilən bir neçə şəhid məzunu oxucularımıza tanıtmağı özümə borc bildim. Onlar ön cəbhədə vuruşaraq qəhrəmanlıq göstərib, şəhidlik zirvəsinə yüksələrək adlarını tarixə qızıl hərflərlə yazdılar.

*Vətən mənə oğul desə, nə dərdim,*
*Mamır olub qayasında bitərdim! (M.Araz)*

Bəli, vətənin mamırlı qayası da igidlərimiz

üçün canlarından əziz oldu. Bunu 44 günlük Vətən müharibəsində igidlərimiz sübut etdilər. Vətənini canından əziz tutanlar isə heç vaxt unudulmayacaq! Onları daha yaxından tanıyaq:

**Dəmir Yolu və Metropoliten üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin məzunu şəhid Sayad Hacıyev** də belə qəhrəman oğullarımız-






dan biri idi. 2001-ci ilin mart ayının 14-də Zaqatala rayonunun Bazar kəndində dünyaya göz açan Sayadın Vətənə olan məhəbbəti hələ uşaq yaşlarından hiss olunurdu. Azərbaycan Himni dilindən düşməzdi. Orta təhsilini başa vurduqdan sonra maşinist olmaq arzusunda olan Sayad 2015-ci ildə sözügedən Mərkəzdə ***"elektrovoz maşinist"*** ixtisasına yiyələnib. Oxuduğu təhsil müəssisələrində nizam-intizamına görə kollektivin və müəllimlərinin rəğbətini qazanıb. Musiqiyə olan həvəsi isə onu piano kursunda oxumasına da səbəb olub. Məktəb və təhsil aldığı Mərkəzin bütün tədbirlərində fəal iştirak edən Sayad hər kəslə mehriban və şən davranmağı bacaran bir gənc idi. Kiçiklərə diqqətlə, böyüklərə hörmətlə yanaşar, mehribanlığı ilə hər kəsdən seçilərdi. Mərkəzi müvəffəqiyyətlə bitirən Sayad 2019-cu ilin iyul ayında Zaqatala rayon hərbi komissarlığından hərbi xidmətə çağırılıb. Xidmət etdiyi müddətdə əsgər və zabit heyətinin də hörmət və rəğbətini qazanıb, hərbi təlimlərdə fəallığı ilə seçilib. Nizam-intizamına və nümunəvi davranışına görə onun şəkli şərəf lövhəsindən enməyib.

2020-ci ilin sentyabr ayının 27-də Azərbaycanın ərazi bütövlüyü uğrunda başlayan İkinci Qarabağ müharibəsində ön cəbhədə vuruşub. Müharibənin ilk günlərindən etibarən Tərtər rayonu ərazisində gedən döyüşlərdə iştirak edib. Döyüşlər zamanı xüsusi cəsurluq və mərdlik göstərərək, yaralı əsgər yoldaşlarını döyüş meydanından qorxmadan xilas edib. Cəbhənin Tərtər, Talış kəndi və Ağdərə istiqamətlərində, həmçinin Suqovuşanın azad olunması uğrunda gedən döyüşlərdə igidlik göstərib. Ağdərə istiqamətində gedən ağır döyüşlər zamanı postu ələ keçirən Sayad, Suqovuşan azad edildikdən sonra növbəti postu düşməndən təmizləyərkən oktyabr ayının 14-də artilleriyadan boyun nahiyəsindən aldığı zərbədən ən uca məqama – şəhidlik zirvəsinə yüksəlib.

*Sayadın anası Simuzər xanımın dediklərindən:* "Sayad döyüşlərdə olan zaman, hətta Suqovuşan azad edildikdən sonra əsgər yoldaşlarına deyib: *"Vaxt gələcək Suqovuşana dəmir yolu çəkiləcək, mən burada ilk maşinist, silahdaşlarım isə ilk sərnişinlərim olacaqlar...".* Çox təəssüf ki, bu Sayadın gerçəkləşdirə bilmədiyi son arzusu oldu. Çünki oğlumla son danışığımız oktyabr ayının 12-də olub. O, söz verdi ki, qayıdacaq, amma sağ-salamat qayıdacağını demədi..."

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Sərəncamı ilə ***Sayad Hacıyev*** ölümündən sonra ***"Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə"*** və ***"Cəsur döyüşçü" medalları*** ilə təltif edilib.

**Xidmət sahələri üzrə Sumqayıt Dövlət Peşə Təhsil Mərkəzinin məzunu şəhid gizir Asiman Allahverdiyev** 1998-ci ilin avqust ayının 23-də






Sumqayıt şəhərində anadan olub. 2013-cü ildə Mərkəzin ***"kompüter operatoru"*** ixtisasına qəbul olub. 2016-cı ilin oktyabr ayının 10-da hərbi xidmətə çağırılıb. Hərbi xidmətini başa vurduqdan sonra Müdafiə Nazirliyinin N saylı hərbi hissəsində xidmət edib. O, döyüş tapşırıqlarını yüksək səviyyədə yerinə yetirdiyi üçün komandirləri tərəfindən dəfələrlə diplom, təşəkkürnamə və hədiyyələrlə təltif olunub. 2020-ci ilin 27 sentyabrında başlayan Vətən müharibəsində XTQ-ın tərkibində Füzuli və Cəbrayıl istiqamətlərində gedən döyüşlərdə iştirak edib. Xüsusi təyinatlı döyüş giziri, qəhrəman Asiman Allahverdiyev Füzuli şəhərinə daxil olan *ilk kəşfiy-*

*yatçılardan biri* olub. Son kəşfiyyat zamanı oktyabr ayının 9-da Füzuli rayonu ətrafında gedən döyüşlərdə şəhidlik zirvəsinə yüksəlib.

*Asiman haqqında qardaşı Cavidan Allahverdiyevin söylədiklərindən:* "Asimanın ən böyük arzusu vətənə xidmət etmək olub. Biz əkiz qardaşlar olmuşuq. Anam bizi təkbaşına böyüdüb. Qardaşım hər dəfə söhbət düşəndə deyərdi: *"Əgər mənə nəsə olarsa, anamı sənə tapşırıram, ona yaxşı baxarsan. Orada-burada qocalıb ölməkdənsə, şəhid olmaq daha şərəflidir"* – deyirdi. Qardaşım 2020-ci ilin oktyabr ayının 10-da snayper ilə vurulub. Onun yanından gələn döyüş yoldaşı anama dedi: *"Kaş oğlunuz sağ olardı, amma siz narahat olmayın, çünki oğlunuz cənnətdədir. Cənnət isə anaların ayaqları altındadır. Biz də sizin oğlunuzuq, nə vaxt nə lazım olarsa köməyinizdəyik. Asiman Füzuli uğrunda gedən döyüşlərdə 50-dən artıq ermənini onlara aman vermədən qumbaraları iki-iki ataraq məhv edib. Ona deyirdim ki, döyüşdə qumbaraları qurtarma, qənaət et! Birdən biz mühasirəyə düşərik, düşmənə təslim olmamaq üçün özümüzü öldürərik".*

***Asiman Allahverdiyev*** ölümündən sonra ***"Azərbaycan Bayrağı"*** ordeni, ***"Füzulinin azad olunması uğrunda", "Cəbrayılın azad olunması uğrunda", "Vətən uğrunda"*** və ***"Hərbi xidmətlərinə görə" medalları*** ilə təltif olunub.

**Abşeron-Binə Peşə Liseyinin məzunu şəhid Əşrəf Məmmədli** 15 sentyabr 1999-cu ildə İs-



mayıllı rayonunun Maçaxı kəndində dünyaya göz açıb. Ailənin ilk övladı olan Əşrəf tam orta təhsilini başa vurduqdan sonra adı çəkilən liseyə daxil olub. Üç il burada təhsil aldıqdan sonra 2017-ci ildə ***"təmirçi-çilingər"*** ixtisasına yiyələnib. 2018-ci ilin yanvar ayının 24-də yaşadığı rayondan hərbi xidmətə çağırılıb. Daxili Sərhəd Qoşunlarına düşən Əşrəf öncə Şəmkirdə, sonra Cəlilabadda və Yardımlıda bir neçə hərbi hissədə qulluq edib. Çavuş rütbəsi alan Əşrəf axırıncı 8 ayı Qazaxın Xanlıqlar kəndindəki sərhəddə düşmənlə üz-üzə dayanaraq xidmət edib. 2019-cu ilin iyul ayının 5-də o, təxris olunaraq evə dönüb. Həmin ilin noyabr ayında yenidən öz istəyi ilə hərbiyə (DSQ) qayıdaraq gizir kimi xidmət edib, sonra isə XTQ-da kəşfiyyata yazılaraq snayperçi olub. Əşrəf çox vətənpərvər, ağıllı, savadlı, mehriban və bacarıqlı bir gənc idi. Onun haqqında saatlarla, günlərlə danışmaq olar. O, hərbi xidmətə gedəndə demişdir: *"Ata, sənin yarımçıq qoyduğun işi tamamlamağa gedirəm".* Getdi, birdəfəlik getdi, amma dediyini də etdi. Onu da xatırlatmaq istərdim ki, Əşrəfin atası Elman Məmmədov Birinci Qarabağ Müharibəsi veteranıdır. Əşrəf 90-dan artıq ermənini öldürərək atasının da qisasını aldı.

Vətən Müharibəsi başlayan ilk gündən o, ön cəbhədə irəliləyənlərdən biri olub. Cəbrayıl, Füzuli, Qubadlı, Hadrut və Suqovuşan uğrunda gedən döyüşlərdə iştirak edib və Zəngilan uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhidlik zirvəsinə ucalıb.

***Gizir Əşrəf Məmmədli*** ölümündən sonra ***"Vətən uğrunda", "Döyüşlərdə fərqlənməyə görə" medalları*** ilə təltif olunub.

**Abşeron-Binə Peşə Liseyinin məzunu şəhid Səfər Həsənov** 2001-ci ilin sentyabr ayının 18-də



Neftçala rayonunun Xıllı kəndində anadan olub. Orta təhsilini Bakının Buzovna qəsəbəsindəki 26 nömrəli tam orta məktəbdə alıb. 2019-cu ildə isə sözügedən liseydə ***"bağban-dekorator"*** ixtisasına qəbul olub. Həmin ilin oktyabr ayının 2-də hərbi xidmətə yollanıb. İlk olaraq Bərdə və Goranboyda xidmət edən Səfər sonra Mingəçevirdə snayper hazırlığı kursu üzrə dərs alıb. Son olaraq Tərtər rayonu, Ağdərə istiqamətində xidmət edib. O, 2020-ci ilin oktyabr ayının 16-da Tərtər rayonunun Suqovuşan-Ağdərə istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə yüksəlib.

***Səfər Həsənov*** ölümündən sonra ***"Vətən uğrunda", "Suqovuşanın azad olunması uğ-***

***runda" medalları*** ilə təltif edilib.

**Abşeron-Binə Peşə Liseyinin məzunu şəhid Nicat Orucov** 1999-cu ilin iyul ayının 20-də Ba-





kının Buzovna qəsəbəsində anadan olub. Uşaq yaşlarından dinini, vətənini sevən gənc idi. Məktəb illərində təbiyəsi ilə müəllimlərinin sevgisini qazanıb. 2018-ci ildə hərbi xidmətə yollanan Nicat xidməti zamanı qorxmazlığı, igidliyi ilə komandirlərinin də nəzərindən qaçmayıb, onu XTQ-ın dəstəsinə daxil ediblər.

Vətən müharibəsinin ilk günlərindən döyüşə qatılan Nicat bir çox rayon və şəhərlərin azad edilməsində iştirak edib. Cəsur döyüşçü Nicat həm də düşmənin xeyli sayda əsgərini məhv edib. Şuşa uğrunda gedən döyüşlərdə snayper hədəfinə tuş gələn Nicatın yaxınlarına göndərdiyi video səsdə deyildiyi kimi: *"Sorğusuz-sualsız Allahın cənnətində şəhid olmaq arzusuna çatıram"*. O, 2020-ci ilin oktyabr ayının 28-də gözlərini əbədi olaraq yumur.

***Nicat haqqında liseyin təbiyə işləri üzrə direktor müavini Zərifə Əliyevanın fikirlərini öyrəndim:*** "Tələbələrimi ilk dərs zamanı hələ tam tanımıram. Mənim hər zaman yeni gələn tələbələrə bir sözüm olur: Bəlkə ən yaxşı tələbə sənsən, amma səni hələ tanımıram. Sən özünü davranışınla necə təqdim etsən, elə də tanıyacam, səni ona uyğun qiymətləndirəcəyəm". Bu sözümdən sonra Nicat gülümsəyərək, *"inşallah yaxşı tələbə olmağa çalışarıq"* demişdir... Belə götürəndə sözüm adicə bir kəlmə idi. Lakin bu cümləni tutan tələbənin gözlərində elə bir işıq vardır ki, insanı elə bir əminliyə sövq edirdi. Sanki inandığın ən doğman bu sözü dedi... Bəli, dedi və dediyi sözü də yerinə yetirdi. Heç bir müəllim onun davranışından narazı qalmadı. Nicat həm də sinif nümayəndəsi idi. O, tələbə yoldaşlarını da həmişə düzgün nizam-intizama dəvət edər və verilən tapşırıqları vaxtında yerinə yetirərdi. Necə ki, ölümü ilə adını müqəddəslər sırasına yazdı, hamımızın fəxr yeri, qürur yeri oldu...

***Nicat Orucov*** ölümündən sonra ***"Vətən uğrunda", "Cəsur döyüşçü", "Kəlbəcərin azad olunmasına görə"*** və ***"Suqovuşanın azad olunmasına görə" medalları*** ilə təltif olunub.

Eyni zamanda liseydə Azərbaycan dili fənnini tədris edən Zərifə Əliyeva şəhid olan tələbə məzunlarından qürur hissi ilə danışaraq fikrini belə yekunlaşdırdı:

– Qalib xalqın məğrur əsgəri, necə də vüqarlıdır sənin müəllimin, yolunu aydınladan öyrətmənin olmaq. Ruhun şad olsun şəhidim, zəfərin mübarək, əzəmətli xalqımın qeyrətli oğulları, mənim tələbələrim, fəxrim, başucalığım... Nicatım, Səfərim, Eminim, Rəşadım, İsam, Əşrəfim... Müəllim öz sevimli tələbəsini daim axtarır, onun uğrunu dinləmək üçün qulağı səsdə, gözü yoldadır. Lakin nə etmək olar?... O sevimli tələbələrim bir daha görüşə gəlməyəcək, geri qayıtmayacaqlar... Məzun olarkən mənə verdikləri sözü heç vaxt ununtmayacağam: *"Müəllim, hər il bu vaxt gəlib sizinlə görüşüb, tapşırığınız kimi uğurlarımızdan sizə danışacağıq..."* verdikləri sözü tuta bilməsələr də canlarını Vətən uğrunda qurban verdilər. Səfərin gülüşü, Əşrəfin ciddi və səmimi siması, Nicatın doğma, utancaq və bir o qədər də vüqarlı duruşu necə unudula bilər? Bax budur, fəxarət dolu müəllimin həyatı. Budur, bir ömrün bar verən meyvəli ağacı kimi, dərin bir kitab kimi mənalı ömrü... Nicat əsgərlikdə olarkən səs yazısı göndərib: *"Ölümdən qorxmalı nə var ki? Qorxu cəhənnəm əzabındadır, o da bizlərə qismət olmaz inşallah"*. Nə deyim ay Nicat? Doğrudan da, bir insan bu qədər layiq ola bilərdimi o məqama? Bu qədər çox arzulayardımı cənnəti? Nicat müqəddəs məqamı canı, qanı bahasına tutdu. Heyrət doğuran o idi ki, şəhid olan tələbələrimin əksər xarakterləri bir-birinə bənzəyirdi. Davranışlarında, həyata baxışlarında, hətta mərd və məğrur duruşlarında belə bir bənzərlik vardır. Bəlkə də onlar öncədən tanrının hüzuruna seçilmişdilər. Nə bilmək olar? Bildiklərimiz isə odur ki, onlar Vətən yolunda, bizlərin ayağımızı Vətən torpağına rahat qoya bilməyimiz üçün qorxmadan, gözlərini belə qırpmadan canlarını fəda etdilər.